İndi Heydər Əliyev Fondunun dünyada tanınan loqosuna işğaldan azad edilmiş ərazilərimizdə tez-tez rast gəlmək mümkündür. Bu nişan fond tərəfindən Qarabağda dirçəliş, bərpa-quruculuq amalı ilə aparılan bir çox işlərin müəlliflik tanıtımı kimi diqqət çəkir. Elə buradaca qeyd edək ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının, soyqırımı siyasətinin ifşası və dünya ictimaiyyətinə çatdırılması Heydər Əliyev Fondunun əsas hədəflərindən biridir. Bu məqsədlə xarici ölkələrdə



# Heydər Əliyev Fondu Qarabağa solmaz naxışlar vurur

***Ümummilli liderin zəngin mənəvi irsini yaşatmaq, azərbaycançılıq fəlsəfəsini şaxələndirmək məramı ilə yaradılmış Heydər Əliyev Fondu Azərbaycanın sosial-iqtisadi, elmi, mədəni və mənəvi həyatında öncül rol oynayır. Ölkənin birinci xanımı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərlik etdiyi fond milli dövlətçilik ideyalarına sadiqlik göstərir, xalqın maddi rifahının yaxşılaşması yönümündə mühüm addımlar atır və ən müxtəlif sahələrə aid tərəqqi layihələrini ardıcıl şəkildə həyata keçirir.***

tədbirlər keçirilir, sərgilər təşkil olunur, müxtəlif dillərdə buklet və kitablar nəşr edilir. 1918-ci ildə Azərbaycan qəzalarında törədilmiş soyqırımını tarixi faktlarla əks etdirən 16 adda üç dildə buklet, 4 adda üç dildə kitab çap olunub. Fondun “Qarabağ həqiqətləri” bukletlər toplusu, bu silsilənin davamı olaraq “Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması” kitabı ingilis dilində nəşr edilib. “Müharibə və tarixi-mədəniyyət abidələrimiz” kitabında Azərbaycanın işğal olunmuş ərazilərindəki ziyarətgahlar və digər tarixi mədəniyyət abidələri haqqında ətraflı məlumat verilir. Bərpa-quruculuq işləri isə fondun Qarabağın dirçəldilməsinə konkret əməli fəaliyyətlə yardımçı olmaq əzminin təzahürüdür.

İnişilin payızında, Vətən müharibəsində böyük Qələbədən bir gün sonra cənab İlham Əliyevlə bərabər birinci xanım Mehriban Əliyevanın da 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərin görüşünə getməsi, eyni zamanda, fondun Qarabağın adı keçən bütün məsələlərə necə həssas münasibət bəslədiyinin göstəricisidir. Dövlət başçısı orada bütün yaralıların tezliklə sağalıb sıraya qayıtması üçün nə lazımdırsa, ediləcəyini bildirərək dedi ki, müharibədə əlini, qolunu, ayağını itirmiş hərbçilərimiz üçün Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın şəxsi təşəbbüsü və nəzarəti altında müasir protezlər gətirilir. Qazilər o protezlərdən istifadə edib futbol da oynaya bilərlər. Bu gün artıq neçə-neçə igid Vətən oğlu fondun köməyi ilə ayağa qalxmış və cəmiyyətə fəal inteqrasiya etmişdir.

Ümumiyyətlə, Heydər Əliyev Fondu illərdir ki, Qarabağ müharibəsi əlillərinə dəstək layihələrini icra edir. 2016-cı ilin dördgünlük Aprel döyüşlərində yaralanan hərbçilərin müalicəsinə, onların sosial durumunun yaxşılaşmasına kömək fondun daimi qayğıları sırasında olub.

Ötən ilin may ayında Şuşanın məşhur Cıdır düzündə neçə illərdən sonra yenidən keçirilmiş “Xarıbülbül” musiqi festivalının əsas təşkilatçısı da Heydər Əliyev Fondu olub. Bu çərçivədə beynəlxalq incəsənət festivalı təşkil edilib və 13 ölkəni təmsil edən 32 rəssam işğaldan azad olunan ərazilərdə “Xarıbülbül” maketlərini, digər unikal əsərləri ərsəyə gətirib. Fond tərəfindən hazırlanan, Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrinin əsərlərinin notlarından ibarət “Əbədi imzalar” toplusu festivalda ictimaiyyətə təqdim edilib. Bu nəşr, həmçinin “Qarabağın mədəni irsi” toplusu,“Musiqi irsi və Qarabağ atları Cıdır düzündə” adlı kompozisiya Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan olunmasına Mehriban xanım Əliyevanın hədiyyəsi olub. Festivalda Azərbaycanda yaşayan müxtəlif xalqların musiqi yaradıcılığı “Azərbaycan musiqisində multikulturalizm” adı altında təqdim edilib. Dünya bir daha şahidi olub ki, mənfur qonşular Qarabağdakı evləri, abidələri dağıtsalar da, ölməz Azərbaycan ruhunu silə bilməyiblər.

Dördüncü “Xarıbülbül” Festivalından iki ay öncə Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşada olarkən Molla Pənah Vaqifin dağıdılmış muzey-məqbərə kompleksinə gəliblər. Heydər Əliyev Fondu bu kompleksə də ikinci həyat verib. Payızda isə orada möhtəşəm Vaqif Poeziya Günləri təşkil edilib. Fond dərin köklərə malik olan muğam sənətinin inkişafına və təbliğinə dəstək məqsədilə “Azərbaycan muğamları” layihəsi çərçivəsində “Qarabağ xanəndələri”, “Muğam ensiklopediyası”, “Azərbaycan muğamı”, “Muğam aləmi” adlı nəşrləri reallaşdırıb, 24 virtuoz ifaçının səsləndirdiyi muğam parçalarından ibarət “Qarabağ xanəndələri” albomunun Parisdə, UNESCO-nun mənzil-qərargahında təqdimat mərasimi keçirilib.

Heydər Əliyev Fondunun Qarabağın dirçəldilməsinə dəstəyi davamlı xarakter daşıyır. Bu il mayın 10-da İlham Əliyevlə birlikdə Qarabağa səfər edən birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva da Şuşada Mehmandarovların malikanə kompleksində aparılan bərpa işlərinin hazırkı mərhələsi ilə tanış olub. İlk dəfə 1977-78-ci illərdə Azərbaycan SSR Mədəniyyət Nazirliyi tərəfindən pasportlaşdırılmış bu malikanə hazırda fond tərəfindən bərpa edilir. XVIII əsrə aid olan saray tipli tarixi yaşayış kompleksinə məscid, böyük və kiçik yaşayış evləri daxildir. Böyük yaşayış binası və ailə məscidinin interyerləri Usta Qəmbər Qarabağı tərəfindən çəkilmiş və Şəki Xan sarayının divar rəsmlərini xatırladan naxışlarla bəzədilmişdi. Kiçik evin panellərində isə təkrarsız rəsm prinsipləri əsasında zəngin kompozisiyalı təsvirlər vardır. Parad zalında tavan boyunca uzanan və maraqlı frizlə bəzədilmiş oyuq malikanəyə xüsusi yaraşıq verib. Bütün bunlar olduğu kimi bərpa ediləcəyi təqdirdə çox böyük heyranlıq yaradacaq.

Mehmandarovların böyük yaşayış binasından sovet dövründə Şuşa Şəhər Xəstəxanası kimi istifadə olunub. İşğal dövründə isə ermənilər tərəfindən dağıntılara məruz qalıb. 1987-ci ildən yaşayış kompleksində Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin (indiki Azərbaycan Milli Xalça Muzeyi) Şuşa filialı fəaliyyətə başlayıb. Ermənilərin təcavüzü başlananda filialdakı daşınması mümkün olan eksponatlar təxliyə olunaraq Bakıya gətirilib. İşğaldan sonra ermənilər bu tikililəri özlərinin qondarma tarix və geologiya muzeylərinə çeviriblər. Şuşa işğaldan azad ediləndən sonra mütəxəssislər tarixi kompleksdə qiymətləndirmə işləri aparıblar və bunun əsasında bərpa prosesi icra olunur. Ötən müddətdə evin dam örtüyü orijinala uyğun quraşdırılıb, binanın tökülmüş bütün daşları, eyvanları, həmçinin kompleksə daxil olan məscidin uçmuş günbəzləri, damı və mehrabı bərpa edilib. Hazırda digər bərpa işləri aparılır. Malikanənin həyətində bulağın bərpası yekunlaşıb, landşaft işlərinə hazırlıq görülür.

Prezident və xanımı Şuşada fondun barpasına başladığı daha bir ünvana baş çəkiblər. Bu, şəhərin mərkəzində, Mərdinli məhəlləsində vaxtilə məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın yaşadığı evdir. Vandalların əli ilə ilkin görkəminin 80 faizə qədərini itirib. Binanın Şuşaya xas memarlıq üslubu bərpa olunacaq. Elə həmin Mərdinli məhəlləsindəki 144 yaşlı Şirin su hamamında da bərpa işləri Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. Hamam ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısındadır və tarixi görkəmi qorunub saxlanılmaqla bərpa ediləcək.

“Shusha Boutique Hotel”də təmir-bərpa işləri aparılan ünvanlardandır. Qeyd edək ki, Şuşanın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq, buna uyğun infrastruktur yaradılır. Otel şəhərin Köçərli küçəsindəki binada yerləşəcək. Müasir səviyyəyə çatdırılacaq oteldə Şuşa şəhərinə səfər edəcək ziyarətçilərin rahatlığı üçün şərait yaradılacaq.

Qarabağa səfərlər və orada unudulmaz təsir bağışlayan tədbirlərsə davam edir. Bu günlərdə Şuşa yenidən mədəniyyət və incəsənət xadimlərini, xalq bədii kollektivlərini öz qoynuna alıb. Orada V “Xarıbülbül” Festivalı başlanır. Festivalın əsas təşkilatçılarından biri məhz Heydər Əliyev Fondudur. Bu ünlü təsisatın yaxından dəstəyi ilə mədəni ənənələrin bərpası hər kəsdə xoş duyğular yaradır.

Bəli, işğaldan azad olunan ərazilərimizdə Azərbaycan dövləti tərəfindən həyata keçirilən nəhəng yenidənqurma işlərinə Heydər Əliyev Fondunun yaxından köməyi fərəh doğurur. O cümlədən Şuşada aparılan bərpa və quruculuq proseslərinin mədəniyyət paytaxtımızın orijinal memarlıq üslubuna uyğun olaraq gerçəkləşdirilməsi təqdirəlayiqdir.

*Əli NƏCƏFXANLI, “Xalq qəzeti”*